



# Heydər Əliyev fenomeninin dövlətçilik tariximizdə müstəsna rolu var

## YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib

***"Heydər Əliyev İli" çərçivəsində sentyabrın 29-da Gəncə şəhərində Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının gənclərlə növbəti görüşü keçirilib.***

Tədbirdə partiyanın Gəncə şəhər, Naftalan, Daşkəsən, Goranboy, Göygöl, Samux və Kəlbəcər rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub. Sonra Gəncə şəhər Şəhidlər xiyabanı ziyarət olunaraq Vətənin qəhrəman övladlarının ruhuna dualar oxunub.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini bildirib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyən B.Aslanov dahi şəxsiyyətin ideyalarının gənc nəslə aşılanmasının vacib olduğunu söyləyib. Onun fikrincə, Ulu Öndər Heydər Əliyev fenomeninin dövlətçilik tariximizdə müstəsna rolunun gənclər tərəfindən hərtərəfli öyrənilməsi çox önəmlidir.

YAP Veteranlar Şurasının üzvü, professor Misir Mərdanov vurğulayıb ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyət Heydər Əliyevin əbədiyaşar ideyalarının yeni nəslə təşviq edilməsidir. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib, həmin dövrlərdə bütün sahələr inkişaf edib.

Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasından danışan YAP Veteranlar Şurasının üzvü, professor Vahid Novruzov qeyd edib ki, Ümummilli Liderimiz Azərbaycanın parlaq gələcəyini təmin edib. O bildirib ki, Ulu Öndər Azərbaycanı tənəzzüldən xilas edərək tərəqqi yoluna çıxararaq şanlı Zəfərimizin möhkəm təməlini yaradıb. Bu gün Azərbaycan Ulu Öndərin layiqli davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir.

Gənc partiya fəalı Göyüş Şəfizadə və digərləri çıxışlarında Heydər Əliyevin əbədiyaşar ideyalarının gənc nəslə aşılanmasının müstəsna əhəmiyyətə malik olduğunu deyiblər.

Sonda gənclərin sualları cavablandırılıb.



















